DOI: https://doi.org/10.36719/2663-4619/92/18-23

Zənfira Quliyeva
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
tarix üzrə fəlsəfə doktoru
seyfeddinsamandarov@mail.ru

AZƏRBAYCAN NEFT SƏNAYESİ TARİXİNƏ RETROSPEKTİV BAXIŞ (NOBEL QARDAŞLARI CƏMİYYƏTİ)

Xülasə

Azərbaycanda neft sənayesinin inkişafında neft maqnatlarının xüsusi rolu vardır. Nümunə olaraq Hacı Zeynalabdin Tağıyevin (1838-1924), Musa Nağıyevin (1842-1919), Şəmsi Əsədullayevin (1840-1913), Əjdərbəy Aşurbəyovun (1855-1921), İsabəy Hacınskinin (1861-1919), Murtuza Muxtarovun (1855-1920) böyük xidmətlərini qeyd etmək olar. Eyni zamanda XIX əsrin sonu XX əsrin əvvəllərində Bakıda bir neçə məşhur xarici şirkətlər də (Nobel qardaşları, Rotşildlər, Mantaşev, Şibayev) fəaliyyət göstərmişdir. Bunlar arasında Nobel və Rotşildlər qardaşlarının şirkəti daha məşhur olmuşdur. Məqalədə Nobel qardaşlarının şirkətlərinin Bakıdakı fəaliyyəti nəzərdən keçirilir.

Açar sözlər: *neft, neft anbarları, neft boruları, neft sənayesi, Nobel qardaşları*

Zanfira Guliyeva
Azerbaijan State Oil and Industry University
Ph.D in History
seyfeddinsamandarov@mail.ru

Retrospective review of the history of Azerbaijan's oil industry (Nobel Brothers Society)

Abstract

Oil tycoons have a special role in the development of the oil industry in Azerbaijan. Examples include Haji Zeynalabdin Taghiyev (1838-1924), Musa Naghiyev (1842-1919), Shamsi Asadullayev (1840-1913), Ajdarbey Ashurbeyov (1855-1921), Isabey Hajinsky (1861-1919), Murtuza Mukhtarov (1855-1920) great services can be noted. At the same time, several famous foreign companies (Nobel brothers, Rothschilds, Mantashev, Shibayev) operated in Baku at the end of the 19th century and the beginning of the 20th century. Among them, the company of Nobel and Rothschild brothers was more famous. The article examines the activities of the Nobel brothers' companies in Baku.

Keywords: *oil, oil reservoirs, oil pipelines, oil industry, Nobel brothers*

Giriş

Neftin çıxarılması və istifadəsi ilə əlaqədar ilk məlumatlara antik dövrlərdə və orta əsr mənbələrində rast gəlmək mümkündür. Lakin antik dövrdə və orta əsrlərdə neft hələ iqtisadiyyatda, siyasətdə, hərb işində o qədər əhəmiyyətli rol oynamırdı. Onun tətbiqi sferası ancaq təsərrüfat həyatı ilə məhdudlaşırdı. XIX əsrin ikinci yarısında tamamilə fərqli mənzərə müşahidə edilməyə başladı. XIX əsrin ikinci yarısından dünyanın qabaqcıl ölkələrində iqtisadiyyat, sənaye, dəmir yolu tikintisi sürətlə inkişaf etməyə başladı, yeni texniki yeniliklərin tətbiqi diqqəti cəlb edir. Həmin mərhələdə iqtisadiyyat və sənayenin əsas inkişaf mərkəzləri kimi ABŞ və Rusiya imperiyası əraziləri qeyd edilir (Cabbarov, 2009: 29). Göründüyü kimi, neftin çıxarılmasının sənayeləşməsi prosesi, yeni dövrə, paralel olaraq kapitalist münasibətlərinin təşəkkülü və inkişafı dövrünə təsadüf edir.

Nobellər haqqında - Nobel sülaləsinin üç nəsli 1837-ci ildən 1917-ci ilə kimi Rusiya imperiyasının müdafiə, neft və digər sənaye sahələrində fəaliyyət göstərmişlər. Nobellər istehsala dövrün ən qabaqcıl texnologiylarını tətbiq etmişdilər (Nobeli dlya Rosssii, 2006: 15).

Belə bir zəmində Nobellər haqqında bir qədər ətraflı məlumat verilməsi yerinə düşərdi.

Emmanuel Nobel (24.03.1801-03.09.1872) sualtı mina ixtiraçısı, Stokholm Universitetinin professoru 1837-ci ildə çar hökumətinin təklifi ilə Rusiyaya köçür. O, 1859-cu ilə kimi burada yaşamış, mexaniki zavod və Rusiyada ilk mina zavodunu tikdirir. Krım müharibəsində (1853-1856) rus ordusunu silah və mina ilə təchiz etmişdir. Nobellərin digər nümayəndəsi Alfred Berinhard (21.10.1833-10.12.1896) Emmanuel Nobelin oğlu, tüstüsüz barıtın, uğultulu civəli kapsul detonatorunun, dinamitin ixtiraçısı, Nobel mükafatlarının təsisçisi, London Kral Cəmiyyətinin və İsveç Elmlər Akademiyasının üzvü, kommersiya işlərində əsasən 2 iri dinamit istehsal edən trest ("Latın" və "Anqlosaks") təşkil etmişdir.

Emmanuel Nobelin digər oğlu Lüdviq Nobel (27.07.1831-12.04.1888) ixtira və sahibkarlıq fəaliyyəti ilə məşğul olmuşdur. Ədəbiyyatlarda L.Nobel aşağıdakı xüsusiyyətləri ilə diqqəti cəlb edən sahibkar kimi aşağıdakı xüsusiyyətləri diqqətə çatdırılır: bunlar cəsarətli və çevik qərarlar qəbul etməyi bacaran sahibkar, gerçək kapitalist, neft sənayesində texniki çevrilişlər edən mühəndis-istehsalçı kimi xüsusiyyətlərdir (Zavelyeva, Leplin, 2019: 47). Belə bir zəmində qeyd etmək yerinə düşərdi ki, L.Nobel dəzgah konstruktoru, Rus Texnika Cəmiyyətinin üzvü idi. Atasının Peterburqda açdığı müəssisələri iri maşınqayırma zavoduna çevirmişdi. Burada söhbət sovet dövründə «Русский Дизел» adı ilə tanınan "Lüdviq Nobel" zavodundan gedir. O, 1876-cı ildə qardaşları Robert və Alfredlə birlikdə Bakıda neft sənayesi müəssisəsinin əsasını qoymuşdur. 1879-cu ildən qardaşı Robertlə birlikdə Bakıda "Nobel qardaşları" şirkətinə başçılıq edir. Nobellərin digər nümayəndəsi Emmanuel Nobel (22.06.1859-31.05.1932) Lüdviq Nobelin oğlu 1888-1917-ci illərdə "Nobel qardaşları" şirkətinin və "Lüdviq Nobel" cəmiyyətinin və digər müəssisələrinin başçısı idi. Çar II Aleksandrın Bakıya səfəri zamanı onun təklifi ilə rus təbəəliyini rəsmən qəbul etmiş, Peterburq fabrikant və zavodçularının sədri, Rusiya inhisarçı burjuaziyasının iri təşkilatlarının başçısı olmuşdur. Lüdviq Nobelin şəxsi kapitalı 5 milyon rubla yaxın idi. O, 1918-ci ilin əvvəllərində İsveçə qayıtmalı olur.

Nobellər və Azərbaycan neft sənayesi – tarixi ədəbiyyatlarda 1 fevral 1872-ci il tarixli "Neft mədənləri və ağ neft istehsalında aksizlər haqqında "Qaydanın qəbul edilməsi ilə iltizam sistemin ləğv edildiyi, bunun isə öz növbəsində neft sənayesinin inkişafına təkan verdiyi bildirilir. Bu fərman iri sahibkarların və onların kapitalının neft yataqlarının istismarına cəlb edilməsinə şərait yaratdı. Deyilən fikri rəqəmlər də sübut edir. Əgər 1872-ci ildə Azərbaycanda 1,4 milyon pud neft çıxarılmışdırsa, 1894-cü ildə Bakıda neftin çıxarılması 340 milyon pud oldu və XIX əsrin sonlarında Azərbaycanın neft hasilatı üzrə göstəricilərdə ABŞ-ı keçdiyi bildirilir (Azərbaycan tarixi, 2000: 203-205). Qeyd etmək lazımdır ki, 1872-ci ilə kimi Bakıda neftin əl ilə dayaz quyulardan dəridən hazırlanmış tuluqlarla çıxarıldığı bildirilir. 1872-ci ildə ilk dəfə olaraq artezan quyuları tipinə uyğun olaraq ilk neft quyusunun qazılmasına başlanıldı. Qazma işləri primitiv üsullarla aparıldığından 12 sajn dərinlikdə işlər sona çatdırıldı. 1876-ci ildə Nobellər Balxanı-Sabunçu ərazisində neft quyusunun buruq vasitəsi ilə ilk dəfə olaraq qazılmasını təşkil etdilər.

1877-ci ildə Nobellər onlara məxsus neft kəmərinin çəkilişinə başladılar. İstifadəyə verilməsinin ilk ilində neft kəmərinə yatırılan bütün məsrəflər öz xərcini ödədi (Əliyev, Muradverdiyev, 1997: 90).

Ümumiyyətlə, "Nobel qardaşlarının neft istehsalı şirkəti" qısaca, "BroNobel"in təməli 1879-cu ildə qoyulmuşdur (Novikov, 2016: 44). Sözügedən şirkət XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Rusiya imperiyasında ən iri neft şirkəti hesab edilir.

1882-ci ildə Lüdviq Bakıya Finlandiyadan, İsveçdən, Norveçdən, Almaniyadan böyük texniki personal dəvət etdi. Həmin personalın Bakıda fəaliyyət göstərməsi üçün "Villa Petrolea" koloniyası yaradıldı. Sözügedən koloniya o zamanlar "Qara şəhər" adlanan (indiki Ağ şəhər) ərazidə yerləşirdi (Səməndərov, 2010: 73).

Nobellər eyni zamanda Qalitsiya və Pensilvaniyadan Avstirya və ABŞ-ın təcrübəli qazma ustalarını cəlb edib müşahidələr apararaq yerli torpaq quruluşuna uyğun qazma metodlarını hazırladılar. 25 il ərzində, yəni 1904-cü ilə kimi "Nobel qardaşları" şirkəti 433 neft quyusu qazmış, ümumi dərinliyi 141 verst (70.502sajn) olan quyulardan 900 milyon pud neft çıxarılmışdı. (Dvatchatiletiya, 1904: 164). Nobellərin adı ilə neft sənayesində bir çox digər yenilikləri də əlaqələndirmək olar:

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, yerlərdə yeniliklərin sürətlə tətbiq edilməsi zərurəti Nobellərdə öz texniki proqramlarının və metodiki nəşrlərin tərtib edilməsi və dərc edilməsi zərurətini hiss etdirməyə başladı. Bütün fəaliyyətləri istiqamətləri üzrə Nobellərin innovsiyalı xarakterli dərc edilmiş əsərlərin ümumi siyahisi təxmini olaraq 120-yə qədərdir. Dərc edilmiş və orjinal əsərlər Rusiya, Azərbaycan, İsveç, Finlandiyanın müxtəlif fondlarında saxlanılır. Müasir dövrdə həmin əsərlərin bir qismi Peterburq elmi nəşriyyatı "Humanistika" tərəfindən toplanılıb, ümuilşdirilərək dərc edilmişdir (Melua, 2013: 134-136).

Nobellərinn innovativ yenilikləri:

Neft anbarları-əvvəllər neft quyuların yaxınlığında 100-200 pud neft saxlaya bilən çənlərdə, 40-70 min pud neft tutan torpaqda qazılmış anbarlarda saxlanılırdı. Bu isə mədənlərdə yanğınların tez-tez baş verməsinə səbəb olurdu, neft fontanları zamanı neftin itkisiz saxlanılmasını qeyri mümkün edirdi. Nobellər ilk dəfə olaraq kərpiclə hörülmüş və özünəməxsus konstruksiyası olan neft anbarlarının tikilməsinə başladılar. İlk olaraq dibi qurğuşun örtüyü olan 4 neft rezervuarının tikilməsinə başlanılsa da bu iqtisadi cəhətdən səmərəli olmadığından, dibi dəmir pərçimlənmiş neft rezervuarlarının tikilməsinə başlanıldı. 1904-cü ildə Nobellərin Rusiya imperiyasının 145 məntəqəsində 187 neft anbarı var idi. Sonradan 155 məntəqədə anbarların sayının 197-yə çatdırılması istiqamətində işlər görüldü.

1879-1882ci illərdə bütün Rusiya imperiyası ərazisində Tsaritsın, Moskva, Tula, Xabarovsk, Kiyev, Rostov-Don, Smolensk, Saratov, Minsk, Nijni-Novqorodda neft rezervuarları inşa edilmişdi.

Neftin borularla ötürülməsi

1878-ci ildə Bakıda ilk dəfə olaraq Balaxanıda Nobel qardaşları şirkətinə məxsus olan mədəndən Qara şəhərə qədər 9 km. uzunluğunda ağ neft kəməri çəkilib istismara verildi (Kərimov, 2015: 19) və neftin borularla ötürülməsi layihəsi gerçəkləşdirildi. Bu zaman gündə 35.000 pud neft borular vasitəsi ilə mədənlərdən anbarlara ötürülürdü. 1879-cu ildə neft borularının sayi 3,1904-cü ildə 37-yə çatırdı. Onlardan 14-ü dəniz suyunu buxar çənlərinin soyudulmasında istifadə edilməsi üçün çəkilmişdi. 1904-cü ildə boruların ümumi uzunluğu 374 verst olub, gücü 2.932 at gücündə olan 89 buxar qazanı vasitəsi ilə hərəkətə gətirilirdi. Əsrin əvvəllərində borular vasitəsi ilə 700 milyon puda qədər neftin ötürülməsi mümkün olmuşdu.

Hasilat işi 430 quyudan neft çıxarılmasını əhatə edirdi. 1904-cü ilin məlumatlarına görə quyulardan gündə orta hesabla 70-75milyon pud neft çıxarılırdı. Bu zaman mədənlərdə 60 nasos stansiyası 8000 at gücündə 250 buxar qazanı istehsal prosesinin təşkilinə xidmət edirdi. Bütün bunlarla yanaşı mədənlərdə daha 220 nasos, 237 buxar maşını 15 mühərrik, 35 elektrik motorları işləyirdi. Nobellərin Abşeron yarımadasında Balaxanı-Sabunçu-Ramana-Bibiheybət neft rayonlarında 120 desyatın ərazidə mədənləri var idi. Torpaqların bir hissəsi icarə ilə istismar edilirdi. Bütünlükdə isə neftlə zəngin 350 deyatinlik ərazi Nobellərin əlində idi (Azərbaycan Sovet Ensiklopediyası», 1983).

Qara şəhərdə kerosin, sürtgü yağları, benzin-parafin, sulfat turşusu, köhnə və təzə anhidritlər zavodu, mexaniki zavodlar, sulfat turşusu və qələvi atıqlarının təkrar emalı müəssisələri, ümumilikdə isə 11 zavod tikilmişdi. İstehsal texnikası xeyli təkmilləşdirilərək zavodlarda kameralı sobalar inşa edilmişdi. Zavodlarda 20 adda neft məhsulları istehsal edilirdi. Nobellərə məxsus zavodlarda 1904-cü ilə kimi 1 milyard 195 pud neftin emal edilmişdi. Burada neftin bir hissəsi hasilatla məşğul olan digər şirkətlərdən alınmışdısa, eyni zamanda neftin müəyyən hissəsi Nobellərə məxsus mədənlərdən çıxarılan neft idi.

Neftin daşınması – 1877-ci ildə İşveçdə Motalen gəmiqayırma zavodunda Lüdviq Nobelin layihəsi əsasında "Zoroastr" adlı ilk neft daşıyan paraxod hazırlandı. Paraxodun dəmir gövdəsi 184

f., eni 27 f. olub 15min pud kerosin daşımaq imkanı var idi. 10 qovşaqlı gəminin hərəkətə gətirilməsi üçün yanacaq kimi mazutdan istifadə edilirdi. Daha sonra "Məhəmməd", "Budda", "Moisey", "Spinoza", "Darvin", "Linney", "Nordenşild" adlanan neft və neft məhsulları daşıyan digər gəmilərdə sifarişlərə əsasən inşa etdirildikdən sonra xəttə buraxılmışdı. Neft daşıyan gəmilər Həştərxandan geri qayıdarkən Bakıya içməli su daşıyırdılar. Neftin daşınmasında digər üsul dəmir yolu nəqliyyatı vasitəsi ilə sisternlərdə neftin daşınması işinin təşkili idi. Bu üsul ilə neftin daşınmasında təşəbbüs yenə də Nobellərə məxsus idi. Beləki, ABŞ-da mövcud texniki yeniliklər öyrənilərək, texniki cəhətdən daha böyük imkanları olan ilk 100 sistern hazırlanaraq Грязе – Царицинский dəmir yolu xəttinə buraxıldı. Sonradan sisternlərin sayı 1.500 çatdırıldı. 1904-cü ildə neftin daşınması bütünlükdə 10 min sisternlə həyata keçirilirdi. Bunlardan 5.397-si Zaqafqaziya, 2.194-ü Vladiqafqaz dəmir yolu xəttinə buraxılmışdı. Nobellərə məxsus şirkət tərəfindən 1904-cü ilə kimi Bakıda 1 milyard 426 min pud neft və neft məhsullarının daşınması, Xəzər və Bolqaboyu xətti üzrə 1milyard 174 milyon pud, Zaqafqaziya dəmir yolu xətti üzrə Qara dəniz vasitəsi ilə ixrac edilmək üçün 252 milyon pud neftin daşınması haqqında məlumatlar var («Bolshaya Sovetskaya Entsiklopediya», 1974: 632).

Mənbələrdə bütünlükdə 1904-cü ildə Nobel qardaşlarının aktivlərinin 75.053. 113.43, passivlərinin də bir o qədər 75.053.113.43 olduğu bildirilir.

"Nobel qardaşları" cəmiyyətinin idarə edilməsi-cəmiyyətin Petroqraddakı İdarəsi tərəfindən həyata keçirilirdi. Sözügedən idarəyə sədrin rəhbərliyi altında 5 direktordan ibarət heyət rəhbərlik edirdi. Cəmiyyətin mərkəzi idarəetmə orqanı 1) İdarə Şurasının nəzdində ümumi kargüzarlıq və katiblik, 2) texniki şöbə, 3) Rusiyada kerosin satışı, 4) mazut və sürtgü yağları satışı, 5) xarici, 6) dəmir yolu, 7) baş mühasibatlıq, 8) əsas kassa, 9) hüquqi, 10) nəzarət şöbələrindən ibarət idi. Mərkəzi orqanlarda idarə etməyə direktorlar və müvafiq şöbələrin rəhbərləri əlaqəli şəkildə rəhbərlik edirdilər. Şirkətin yerlərdə işinin həyata keçirilməsi işi əyalət şöbələri tərəfindən icra edilirdi. Cəmiyyətin Bakı şöbəsinin 1) zavod şöbəsi Qara şəhərdə (Черный город), 2) sənaye şöbəsi Balaxanıda yerləşirdi. Batum və Novorosiysk şöbələri Qara dəniz vasitəsi ilə neft ixracının tışkili işini həyata keçirirdilər. Qeyd etmək lazımdırki, 1901-ci ilin məlumatına görə Batum vasitəsi ilə ixrac olunan 74,4 milyon puddan 51,6%-i üç firma tərəfindən həyata keçirlmişdir. Bu siyahıya "Kaspi-Qara dəniz şirkəti", "A.İ.Mantaşev və K.º" cəmiyyəti ilə yanaşı "Nobel qardaşları" şirkəti də daxildir ("Sovetskaya Istoricheskaya Ensiklopediya", 1967: 1040).

Daxili və xarici bazarlarda öz mövqelərinin möhkəmləndirilməsi üçün "Nobel qardaşları" təşkilati bir sıra tədbirlər həyata keçirmişdilər. Belə tədbirlərdən biri kimi "Nobel mazutun" yaradılması göstərilə bilər. **"Nobel mazut"** – Rusiyada neft sənayesində kartel tipli iri inhisar birliyi "Nobel qardaşları" və Rotşildlərə məxsus "mazut cəmiyyəti (1898-cı ildə təsis edilmiş) arasında bağlanılmış saziş əsasında 1901-1903-cü illərdə yaradılmışdı. Hər iki firma neft məhsulları satışını tam inhisara almaq və yüksək gəlir götürmək üçün daxili bazarlarda bir-biri ilə razılaşdırılmış ticarət siyasəti yürütməyi öz öhdələrinə götürmüşdülər. 1900-cu ildə neft istehsalının 21%-i, neft ixracının 40%-i onların payına düşürdü. Saziş Rusiya daxili bazarında onların hegemonluğunu təmin etmiş, Bakıda dənizlə daxili bazara daşınan duru yanacağın 57%-i, sürtgü yağlarının 67,5%-i, ağır neft yanacağının 43,5%-i ixrac edilən neftin 60%-i, bu şirkətlərin əlində idi. Nobellər Rotşildlərlə ağ nefti xarici bazarlara ixrac etmək üçün öz qüvvələrini birləşdirmişdilər. Onlar 1900-cı ildə ingilis dilində aparılacaq bütün işləri görəcək "Konsolireyted petrolium and Kº" kompaniyasını yaratmaq barədə razılığa gəldilər. Tezliklə kompaniya Rokfellerlərlə ingilis bazarını bölmək barəsində müqavilə bağladı. Bu müqaviləyə əsasən Rokfellerlər ingilis bazarına ağ neftin 60%-ni onların təşkil etdiyi kompaniya isə 40%-ni çıxara bilərdi. 1901-ci ildə "Nobel-Rotşild qrupuna" qarşı "Ağneft-yağ istehsalı şirkəti" (Tokamp") yaradıldı. Yeni şirkətin tərkibinə "A.İ.Montaşev və Kº" və "Kaspi şirkəti" daxil idi. Bu yeni birlik rus müəssisəsi kimi yaradılsa da əslində ingilis maliyyəçilərinin əlində idi. "Tokamp" "Nobel mazutun" ciddi rəqibi idi. Bununla belə Nobellər ingilis sahibkarları ilə Almaniyada ağ neft ticarəti qaydaları haqqında saziş bağlamaqla iki kompaniya arasında kəskin rəqabəti yumşalda bilmişdilər. Bundan əlavə rəqabətə davam gətirmək üçün Nobellər ABŞ-ın "Standart Oyl Kº" kompaniyası, Rotşild və İngilis-Holland

tresti "Shell" ilə möhkəm əlaqə yarada bilmişdilər. Daha sonra 1902-ci ildə "Standart Oyl K^{o}"-nın Avropadakı bütün filialları Nobellərlə bağlanmış müqavilələrin müddətini daha 5 il artırdılar. Digər maraqlı fakt kimi "S.M.Şibayev və K^{o}", "A.İ.Montaşev və K^{o}", "Q.M.Lianzovun oğulları", "Oleum" kimi şirkətlər çıxardıqları bütün yanacağın satış hüququnu "Nobel mazuta" həvalə etmələri faktı göstərilə bilər. Onlar hər il "Nobel mazuta" dəqiq, müəyyən miqdarda ucuz qiymətə neft verməli olurdular. Bu isə onunla izah olunurki, hələ XIX əsrin 80-ci illərindən başlayaraq "Nobel qardaşları" birliyinin daxili bazarda neft məhsulları ilə ticarətdə üstünlüyü özünü büruzə vermişdi. Bu üstünlük isə şirkətin istehsal-nəqliyyat-satış əməliyyatlarını əhatə edən fəaliyyəti sayəsində mümkün olmuşdu. Əsrin əvvəllərində qlobal iqtisadi böhran şəraitində "Nobel qardaşları cəmiyyətinin "bu imkanlardan şirkətləri üçün istər daxili istərsə də xarici bazarda neft və neft məhsullarının alqı-satqısında istifadə ertmələri üçün şərait yaratmışdı.

I Dünya Müharibəsi ərəfəsində "mazut" İngiltərə-Hollandiya "Royyal Datç Şell" inhisarının əlinə keçdi. "Nobel mazut" isə Rusiyada neft konsernləri içərisində, xüsusi ilə "Nobel qardaşları "şirkətinin hakim mövqelərini inqilabi hadisələrə qədər saxlaya bilmişdilər.

Nəhayət sonunda qeyd etmək lazımdır ki, XIX əsrin 80-ci illərindən və XX əsrin ikinci on illiyinə qədər olan dövr Azərbaycan neft sənayesi tarixində, neftin sənaye üsulları ilə çıxarılmasının ilkin mərhələlərindən biri kimi dəyərləndirilə bilər. Bu illər ərzində Azərbaycan neft sənayesində milli kapital – H.Z.Tağıyev, M.Nağıyev, Qafqaz kapitalı – A.İ.Montaşev, Q.M.Lianzov, Peterburq metal zavodçuları L.Nobel, P.A.Bilderlinq, Moskva tikiş fabrikçisi S.M.Şibayev ilə təmsil olunmuşdular. İngilis, Fransız və digər əcnəbi kapitallarda birbaşa və dolayı yollarla Azərbaycan neft sənayesində pay sahibi idilər. Lakin bunların içərisində Nobel qardaşları cəmiyyətinin mövqeyi daha güclü idi. Faktlar göstərir ki, tarixi şərait Rus imperiyasının yaratmış olduğu müstəmləkə üsul-idarəsi Azərbaycan xalqının külli miqdarda sərvətlərinin neftlə birlikdə qarşılıqsız olaraq qeyri müəyyən istiqamətlərə daşınmasına səbəb olmuşdu.

Nəticə

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanın müstəmləkə əsarətində oldugu bir vaxtda neft sənayesinə xarici kapitalın axını, eyni zamanda Azərbaycan neftinin amansız istismarı və xaricə daşınması diqqəti cəlb edir. Müstəmləkə şəraitində neft sənayesində inkişaf olsa da, bu sahədəki gəlir əsasən xarici neft maqnatlarına və çar xəzinəsinə məxsus idi.

Ədəbiyyat

1. Cabbarov, F.R. (2009). "Kavkazskaya Neft vo vneshney politike SCHA (1920-1922). Vestnik Dagestanskogo Ujsudartsvennogo Universiteta. Seriya 2: Gumanitarne nauki, № 4, 29 s. (29-36). URL: https://cyberleninka.ru/article/n/kavkazskaya-neft-vo-vneshney-politike-ssha-1920-1922.
2. Nobeli dlya Rossii, Rossiya-dlya Nobeley. Regionalnayae konomika: teoriya i praktika, 2006 (№5), URL: https://cyberleninka.ru/article/n/nobeli-dlya-rossii-rossiya-dlya-nobeley
3. Zavelyeva, E.A, Leplin, S.V. (2019). "Bakinskiy neftyanoy rayon na rubeje XIX-XX vekov: nachionalniy kapital i inostarnnaya ekspansiya. Istoriya ipedagogika estestvoznaniya. № 3, s.47-50. URL: https://cyberleninka.ru/article/n/bakinskiy-neftyanoy-rayon-na-rubezhe-xix-xx-vekov-natsionalnyy-kapital-i-inostrannaya-ekspansiya
4. "Azərbaycan tarixi" (7cilddə). (2000-2001). Bakı: "Elm", IV c., 508 s., V c., 672 s.
5. Əliyev, İ., Muradverdiyev A. (1997). Azərbaycan nefti dünya siyasətində. Bakı, 260 s.
6. Novikov, N. (2016). Iz Istoryy neftyanoy korporativi bratyev Nobel Istoriya i pedagoika estestvoznaniya. № 2.
7. Səməndərov, S.S. (2010). «Azərbaycan neft sənayesi tarixindən» (Nobel qardaşları cəmiyyəti), "Elmə həsr olunmuş ömür". Azərbaycan iqtisad elminin görkəmli nümayəndəsi, elmlər doktoru, professor M.M.Allahverdiyevin 80 illiyinə həsr olunmuş elmi-nəzəri konfransın materialları, s.70-73
8. "Dvatchatiletiya tovarishestva neftyanogo proizvodstvo Br.Nobel 1879-1904 (SPb 1904).

9. Melua, A.A. (2013). Evolyutsiya innovatsionniy politiki v firmakh Nobeley (vtoraya polovina XIX – nashala XX v.). Izvestiya SPbQREU. № 6 (84), s.134-136 URL: Oshibka! Nedopustimyy obyekt giperssylki.article/n/evolyutsiya-innovatsionnoy-politiki-v-firmah-nobeley-vtoraya-polovina-xix-nachalo-hh-v-1
10. Kərimov, N.Ə. (2015). XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda çar Rusiyasının neft siyasəti, Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Bakı, 26 s.
11. "Azərbaycan Sovet Ensiklopediyası" (on cilddə). (1983). Bakı, II, V.
12. "Bolshaya Sovetskaya Entsiklopediya". (1974). V 30-ti tomakh, 3-ye, izd., "Sovetskaya entsiklopediya" t.18, 632 s.
    URL: https: cyberleninka.ru/article/n/iz-IzIstorii neftyanoy korporativi bratyev Nobel
13. "Sovetskaya Istoricheskaya Ensiklopediya". (1967). 1040 s.

Göndərilib: 30.04.2023 Qəbul edilib: 29.06.2023